# Füzulidən başlayan müharibə...

**2020-ci ilin sonlarında ölkəmiz möhtəşəm qələbə dövrünü yaşadı, həmin vaxtlarda, şanlı ordumuz 1994-cü ildən bu vaxta qədər, düşmən tapdağında olan və uzun illər ərzində yolumuzu gözləyən doğma torpaqlarımızı erməni faşistlərinin əsarətindən qurtardı. Həmin ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsi, noyabr ayının 10-da Azərbaycan ordusunun möhtəşəm qələbəsi, Ermənistan ordusunun darmadağın olunması və Rusiyanın da iştirakı ilə, düşmən ölkənin rəhbərliyinin atəşkəs bəyanatının imzalamasına məcbur oldu.**

Tarixə qovuşan və müxtəlif kitablarda, dərsliklərdə yer alan bu şanlı qələbəmizi xalqımıza yaşadan müharibə iştirakçılardan biri, mayor Ceyhun Mirzəbaba oğlu Təhməzov haqda söz açmaq istəyirik.

Ceyhun Mirzəbaba oğlu Təhməzov Vətənimizin gözəl guşələrindən biri olan, Lerik rayonunun Lerik qəsəbəsində 1989-cu ildə avqust ayının 8-də dünyaya göz açıb. Orta təhsilini doğma qəsəbəsində başa vuran Ceyhun, uşaqlıqdan arzuladığı hərbçi peşəsinə yiyələnmək üçün 2007-ci ildə sənədlərini Azərbaycan Ali Hərbi Məktəbinə göndərir. Qəbul imtahanlarını müvəffəqiyyətlə başa vuran C.Təhməzov Ali Hərbi Məktəbiə qəbul olunur.

4 il ərzində Ali Hərbi Məktəbin tədris korpuslarında və təlim poliqonlarında təhsil alan və müxtəlif silah və texnikaların sirlərinə yiyələnən Ceyhun, özünü zabit peşəsinə hazırlayırdı.

Hərbi məktəbdə bir çox təcrübəli və peşəkar müəllim heyəti çalışır, bu müəllimlərin köməyi ilə Ceyhun atıcı silahların, zirehli hərbi maşınların istismarını, döyüş zamanı səmərəli istifadə olunması qaydalarını öyrənir və məktəbin müəllim-professor heyəti arasında hörmət qazanaraq qabaqcıl kursantlardan biri olur.

C.Təhməzov Ali Hərbi Məktəbin ilk 2 kursunu Ümumqoşun fakültəsində təhsil alır, sonra məktəbin rəhbərliyi Ceyhunun bilik və bacarığını nəzərə alaraq onu kəşfiyyatçı ixtisasına keçirirlər. 2 il də kəşfiyyat ixtisasının biliklərinə yiyələnən Ceyhun, nəhayət 2011-ci ildə Ali Məktəbin Dövlət imtahanlarını müvəffəqiyyətlə keçərək, leytenant hərbi rütbəsini alır.

Gənc zabit Ceyhun Təhməzov Ali Hərbi Məktəbi bitirdikdən sonra, ümumi qaydada Təlim və Tədris Mərkəzinə zabit təkmilləşdirmə kursuna göndərilir. Həmin kursda gənc zabitlər qoşunlara göndərilməmişdən qabaq, 1 il ərzində hərbi təhsilini davam etdirir və kursu bitirdikdən sonra, müxtəlif hərbi hissələrə təyinat alırlar.

Ceyhun Təlim Mərkəzində oxuduğu zaman, onu Xüsusi Təyinatlı Qoşunların rəhbər heyəti bir çox zabitlərin içindən seçərək, Xüsusi Təyinatlı Kəşfiyyat kursuna keçirirlər. Beləliklə, gənc kəşfiyyatçı, leytenant Ceyhun Təhməzov Xüsusi Təyinatlıların kursunda bu qoşun növünün sirlərinə yiyələnməyə başlayır.

2012-ci ildə C.Təhməzov Təlim Mərkəzində kursu bitirir və Naxçıvan bölgəsində yerləşən xüsusi təyinatlı kəşfiyyat taboruna qrup komandiri vəzifəsinə təyin olunur. 2 il ərzində leytenant Ceyhun Təhməzov xidmət etdiyi hərbi hissədə, kəşfiyyatçı peşəsinin incəliklərini öyrənərək, komandanlığın müxtəlif tapşırıqlarını layiqincə yerinə yetirir, zabit, gizir və müddətdən artıq qulluq edən hərbi qulluqçular arasında hörmət qazanmağa nail olur. 2014-cü ildə Ceyhun Təhməzov Əlahiddə Ümumqoşun Ordunun yeni yaranmış tədris briqadasına kəşfiyyat ixtisası üzrə taqım komandiri vəzifəsinə təyinat alır.

Kəşfiyyatçı peşəsini seçən Ceyhun Təhməzov bu sahədə təcrübəsini artırır, qulluq etdiyi hərbi hissədə öz bilik və bacarığını nümayiş etdirərək komandanlığın etimadını qazanır.

İllər ərzində qulluq etdiyi xüsusi təyinatlı hərbi hissədə çalışan Ceyhun Təhməzov, taqım komandiri vəzifəsindən əlahiddə hərbi hissənin qərargah rəisi vəzifəsinə qədər yüksəlir.

2020-ci ilin sentyabr ayında xalqımızın əbədi düşməni olan erməni daşnakları ilə müharibə başlayan zaman, Ceyhun Təhməzovun da xidmət etdiyi xüsusi təyinatlı hərbi hissə də, düşməni məhv etmək üçün döyüşlərə atıldı. Müharibə kapitan C.Təhməzov üçün Füzuli rayonundan başladı. Ceyhun rəhbərlik etdiyi bölmə ilə, düşmənin canlı qüvvəsini məhv edərək, Füzulinin "720" yüksəkliyi ətrafında gedən döyüşlərdə fəal iştirak edib. Kapitan C.Təhməzov öz döyüşçüləri ilə birlikdə, Füzuli-Xocavənd kəndləri olan - Ağbulaq, Axıllı və Edillinin alınması, bundan əlavə komandanlıq tərəfindən bu ərazilərdə yerləşən dağ silsiləsinin alınması tapşırığını alırlar. Cəsur döyüşçülər bu anları çoxdan gözləyirdilər və bu fürsətdə onların əlinə düşdü. Ceyhunla söhbət zamanı o bildirdi ki, düşmən bizim xüsusi təyinatlıların döyüşməsini görərək özünü itirmişdir. Onlar o dərəcədə qorxuya düşmüşdülər ki, bir çox hallarda hərbi texnikasını və silah-sursatını işlək vəziyyətdə ataraq canlarını ölümdən qurtarırdılar. Bizim hərbçilərimizdə, düşmənə sarsıdıcı zərbələr endirir və onların yenidən birləşib bizə qarşı döyüşməsi üçün imkan vermirdilər. C.Təhməzov və onun qəhrəman döyüş yoldaşları, oktyabr ayının 17-ə qədər bu ərazilərdə düşmənlə qəhrəmacasına döyüşüb, bu əraziləri erməni faşistlərindən təmizləyərək doğma torpaqlarımızı azad etdilər. Sözügedən əraziləri düşməndən azad etdikdən sonra, bu ərazilər ordumuzun başqa hərbi hissəsinə təhvil verildi və Ceyhunun bölməsi yeni tapşırıq alaraq yola düşdü.

Yeni tapşırıq isə - Şuşanın alınması idi. Dəstə komandiri kimi döyüşlərə qatılan kapitan Ceyhun Təhməzov doğma torpaqlarımızın azad olunması yolunda düşmənə aman vermirdi, hər an ölümü gözünün qabağına gətirən Ceyhun və onun bölməsi, hər döyüş zamanı sanki son döyüşü kimi vuruşurdular.

Ceyhun dəstəsi ilə birlikdə, Şuşanın kəndləri - Şıxer, Azox, Siqnax, Daşaltı ətrafında döyüşlərdə iştirak edib. Döyüşlər zamanı xüsusi təyinatlı bölmə düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdir. Noyabr ayının 2-də düşmənlə qanlı döyüşlər zamanı Ceyhun Təhməzov Daşaltının "1553" yüksəkliyində sol qolundan minaatan qəlpəsinin dəyməsi nəticəsində yaralanmışdır. Bir müddət yaralı vəziyyətdə döyüşən Ceyhunu, onun yaralı vəziyyətdə olduğunu görən komandiri əmr edərək döyüşdən çıxmasını tələb etdi. Yaralı olan Ceyhun Təhməzovu ilk növbədə Füzuli rayonunda yerləşən hərbi hospitala, sonra isə Bakı şəhərində yerləşən Mərkəzi Hərbi Kliniki Hospitala yerləşdirdilər. Ceyhunla söhbət zamanı o da məlum oldu ki, döyüşlər zamanı onun bölməsindən 4 nəfər şəhid zirvəsinə ucalmışdır, 14 nəfər isə yaralanaraq qazi olmuşdur.

Şəhid adına layiq olanlar arasında - Müddətdən artıq xidmət edən hərbi qulluqçu Şirxan Xanməmmədov, Seymur İbrahimov, Elvin Sadıqov və Əli Məmmədov Vətən qarşısında öz borclarını sona qədər yerinə yetirərək yaddaşarda və ürəklərdə əbədiləşdilər. C.Təhməzov onu da qeyd etdi ki,



onun xidmət etdiyi hərbi hissənin komandiri əslən Kəlbəcər rayonundan olan və doğma rayonunun azad olunmasını yaşaya bilməyən polkovnikleytenant Anar Əliyev düşmənlə gedən azğın döyüş zamanı Xocavənd rayonunun Tuğ kəndində şəhid olmuşdur. Ceyhun üç il yarım Anar Əliyevlə xidmət etmişdir və onun haqqında çoxlu xoş xatirələr danışdı.

Mayor Ceyhun Təhməzov onu na bildirdi ki, bu haqq müharibəmizdə onun xidmət etdiyi xüsusi təyinatlı hərbi hissədən 300 nəfər hərbi qulluqçu iştirak edirdi, cəsur döyüşçülərimiz tərəfindən döyüşlər zamanı düşmənin çoxlu sayda zabit və əsgərləri məhv edilmişdir, biz tərəfdən isə, 80-dan artıq hərbçimiz şəhidlik zirvəsinə ucalmışdır. Bu müharibədə şanlı ordumuzun zabit və əsgərləri düşmənə qan uddurdu. Bizim qəhrəman hərbçilərimiz öz doğma ata-baba torpaqlarını düşməndən azad edirdi, buna görə də döyüş ruhu əlbətdə ki bizim döyüşçülərimizdə daha yüksək idi. Bunun nəticəsində düşmən qüvvələr bizdən 3 qat daha çox itki vermişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirərək, döyüşlərdə şücaət göstərib düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 15 dekabr 2020-ci ildə imzaladığı sərəncama əsasən mayor Ceyhun Təhməzova "Azərbaycan Bayrağı" ordeni təqdim edilmişdir. Bundan əlavə Ceyhun Təhməzova Vətən qarşısında xidmətlərə görə, vaxtından əvvəl "Mayor" hərbi rütbəsi və Şuşanın, Xocavəndin, Füzulinin azad olunması medalları da verilmişdir.

Hazırda mayor Ceyhun Təhməzov Silahlı Qüvvələrin Hərbi Akademiyasında magistr pilləsində təhsilini davam etdirir. Təhsilini başa vurduqdan sonra, komandanlığın əmrinə əsasən, onu yeni və sözsüz ki, yuxarı vəzifəyə təqdim edəcəklər. Təhsilini başa vurduqdan sonra, Ceyhunun xidməti zamanı və döyüşlərdə qazandığı təcrübə, yenidən rəhbərlik etdiyi yeni zabit və əsgərlərin inkişafı üçün faydalı olacaq.

Silahlı Qüvvələrimizdə mayor Ceyhun Təhməzov kimi zabitlərimiz az deyil, bizim xalqımız belə hərbçilərimizlə fəxr edir, Vətəni sevən və hər an doğma torpaqlarının müdafiəsi yolunda canlarından keçməyə hazır olan bu cür Azərbaycan oğulları, düşmənə hələ növbəti savaşlarda yerini göstərəcək.

***İsmayıl ABDULLAYEV,***
***E. o. zabit***